

**Gözəl sənətkarımız Səyyad Əlizadə, onun rəngarəng, çoxşaxəli yaradıcılığı barədə kifayət qədər zəngin məlumatım var. Haqqında qəzet və jurnallarda silsilə yazılar getmiş, radio və televiziyalarda maraqlı verlişlər yayımlanmışdır. Təbii ki, başqaları kimi mənim də müğənni ilə ilk tanışlığım onun könülləri oxşayan həzin, məlahətli səsindən başlamışdır. Bu nə vaxt olub?! Bilmirəm! Hərdən mənə elə gəlir ki, Səyyadı yüz illərdir ki, tanıyıram...**

# "Bəyaz gecələr"in işığında

## Tanınmış müğənni Səyyad Əlizadə çox uğurlara imza atıb...

Onu başqalarından fərqləndirən cəhətlər çoxdur. Sadə və təvazökar, səmimi və zəhmətkeşdir. Bəzən belələri haqqında irəli sürülən fikirlər sərt və ədalətsiz olur: "Zəmanə adamı deyil..."

Əlbəttə, bu cür hökm verənlər mənən kasad, əqidəcə dayaz adamlardır. Onlara görə sadəlik və təvazökarlıq insana nəinki ad almağa, məşhur olmağa, həm də ümumiyyətlə, irəli getməyə, cəmiyyətdə seçilməyə mane olur

Acı təəssüf doğuran odur ki, bu fikirlərin təsdiqlən-diyi məqamlara da az rast gəlinmir. Bəzən heç bir istedada, savada, insani keyfiyyətə malik olmayan kəslər ad da alırlar, hələ üstəlik vəzifə pilləsində sürətlə ucalırlar da. Amma...

Amma onlar heç zaman sevilmirlər, məşhur olmurlar, yaddaşlarda qalmırlar. Belə ki, ömürləri yarıtmaz fəaliyyətləri qədər gödək, məşhurluqları cod səslərinə alqış qazandırmaq məqsədilə dəridən-qabıqdan çıxdıqları məqam qədər ani olur.

Ən dəhşətlisi odur ki, belələri özlərindən başqa heç kəsi görmür, duymur, hiss etmir, görmək və eşitmək istəmirlər. Düşünə də bilmirlər ki, Alim, Mənsum, Könül, Aygün, Zabit, Səyyad olan yerdə onlar sənətdən alaq otundan başqa bir şey deyillər...

Nə isə, söhbətdən yayınmayaq. Gəlin gözəl sənətkarımız Səyyad Əlizadənin ömür kitabını birgə vərəqləyək.

Səyyad Əşrəf oğlu Əlizadə Füzuli rayonunun Şıxbaba kəndində anadan olub. Hələ Alayatırlı kənd orta məktəbində oxuyarkən öz istedad və bacarığı ilə yaşıdlarından seçilib, rayonun ictimai həyatında fəal iştirak edib. 1972-1973-cü illərdə Füzulidə keçirilən "Qarabağ mahnı festivalı"nın qalibi olub.



Bu uğur onu sənətə daha möhkəm tellərlə bağlayıb. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda oxuyanda belə təhsildən daha çox mahnı, musiqi qayğısına qalıb.

İnstitutun "Arzu" xalq çalğı alətləri ansamblının solisti kimi ali məktəb və respublika əhəmiyyətli tədbirlərdə, festival və müsabiqələrdə dəfələrlə iştirak edib. İkinci kursda oxuyarkən Ümumrespublika musiqi festivalının qalibi adını qazanıb.

İllər keşdikcə mükafatların sayı da artıb: "Vətənpərvərlik nəğmələri", "Tələbə-gənclərin ümumittifaq mahnı festivalı", "Oxu tar" respublika baxış-müsabiqəsi, "İstedadlar axtarırıq" və s. festival və müsabiqələrin qalibi.

İnstitutu bitirdikdən sonra gənc mütəxəssis kimi Kiyev şəhərinə göndərilən S.Əlizadə çox keçmir ki, həqiqi hərbi xidmətə yola düşür.

1984-cü ildə ordu sıralarından leytenant rütbəsi ilə tərxis olunur və Bakıya qayıdır. Burada tanınmış müğənni Baba Mahmudoğlunun rəhbərlik etdiyi "Dastan" folklor ansamblının solisti kimi fəaliyyət göstərir.

Bir il sonra məşhur tarzən Ağasəlim Abdullayev gənc müğənnini "Araz" xalq çalğı alətləri ansamblına dəvət edir. 1987-ci ildə isə belə bir dəvət məşhur meyxana ustası Nizami Rəmzi və istedadlı musiqiçi Abasqulu Nəcəfovun birgə yaratdıqları "Meyxana" ansamblından gəlir.

Elə həmin ildə "Təbrizim" adlı ilk audio albomu işıq üzü görür. Bu albom və televiziyanın "Dalğa" proqramında çıxışı onu daha da populyarlaşdırır.

S.Əlizadənin "İstedadlar axtarırıq" Respublika festivalının laureatı adı alması da 1988-ci ilə təsadüf edir.

Repertuarı türkdilli xalqların - özbək, qazax, türkmən, uyğur, qırğız, qaqauz mahnıları ilə zəngin olan müğənni Özbəkistan və Türkiyənin onlarla şəhərində möhtəşəm konsert proqramları ilə çıxış edir və böyük uğur qazanır. 1991-1994-cü illərdə o təkrar-təkrar Türkiyəyə dəvət olunur.

1990-cı ildə "Azərbaycanım" adlı ikinci albomu buraxılır. 1993-1994-cü illərdə estrada mahnılarından ibarət yeni albomu sənətsevərlərin ixtiyarına verilir.

Müğəniyyə ən çox şöhrət gətirən isə "Bəyaz gecələr" adlı albomu olur. Bu albom yalnız respublikamızda deyil, həm də Türkiyə, Rusiya, Gürcüstan, İran, Suriya və digər ərəb ölkələrində sonsuz maraqla qarşılanır.

Beləcə, S.Əlizadə özünün "Bəyaz gecələr" instrumental ansamblını, daha sonra eyniadlı yaradıcılıq mərkəzini yaradır.

1996-cı il onun üçün "Gözləyirəm yolunu" albomunun, "Sən ey Vətən" klipinin işıq üzü görməsi və Rusiyanın Sankt-Peterburq, Surqut, Tümen, Nijni-Vartovsk, Nefte-Tyuqansk və digər şəhərlərinə maraqlı konsert proqramı ilə qastrol səfərlərinin gerçəkləşməsi ilə yadda qalır.

Sonrakı illərdə də tanınmış müğənni Səyyad Əlizadənin həyatı qürur doğuran uğurlarla zəngin olur. "Xallı qız", "Həyat sevgidir", "Gözlərimin yaşı", "Dünya gözəl dünyadır", "Su pərisi", "Harda qaldın", "Bizim uşaq dünyamız", "Azəri qızları" və başqa albomları işıq üzü görür.

"Sənin üçün oxuyuram", "Sankt-Peterburq görüşləri", "Gül ki, ürəyim gülsün", "Axtaracaqsan", "Qaranquşlar gələndə", "Bu həyat bizimdir" və s. kasetləri, "Saçlarım bəyaz oldu", "Su pərisi", "Məhəbbət əfsanəsi", "Gözlərimin yaşı" və digər diskləri buraxılır.

"Bakı, sabahın xeyir!", "Gücüm gözlərimin yaşına çatır", "Bəyaz gecələr", "Nakam məhəbbət" və başqa klipləri sənətsevərlər tərəfindən yüksək dəyərləndirilir.

Bu illər ərzində S.Əlizadə onlarla dövlət və xeyriyyə tədbirlərində fəal iştirak edir, hərbi hissələrdə əsgərlər qarşısında onun rəngarəng çıxışları olur, dünyanın ayrı-ayrı ölkələrinə, o cümlədən Çinə dəvət alır.

Səyyad Əlizadənin albom, kaset və klipləri kimi mükafatları da çoxdur. Onları sadalasaq uzun bir siyahı alınar. Amma müğənni üçün ən böyük mükafat sənətsevərlərin ona verdiyi dəyər, xalqının sevgisidir.

**Sevimli sənətkarımıza bundan sonrakı fəaliyyətində də bol-bol uğurlar, möhkəm cansağlığı, ailə səadəti arzulayırıq. İstəyirik ki, "Bəyaz gecələr"in işığında qəlblərə yol tapan mahnıları da, zövqoxşayan albom və klipləri də, mənalı axtarışları ilə seçilən yaradıcılıq mərkəzi də uzunömürlü olsun...**

● **Y.Araplı**